# Böyük İttifaq Dövlətinə doğru: Rusiyanın Donetsk və Luqanska niyə ehtiyacı var?

written by Maria Kucherenko Mariya Kuçerenko
Rusların *Böyük İttifaq Dövləti* layihəsi Şərqi Ukraynanın Rusiya tərəfindən işğal edilmiş ərazilərinin taleyinə birbaşa təsir edir. Rusiya *Donetsk və Luqanskın inteqrasiyası*ndan danışarkən əslində hansı hədəfləri güdür? Rusiyanın motivləri həm daxili, həm də xarici siyasət müstəvisindədir.

**Böyük İttifaq Dövlətinin bürokratiyası**

*Böyük İttifaq Dövləti* layihəsi Rusiya üçün prioritetdir və Rusiya Federasiyasının iştirak etdiyi danışıqlar formatındakı bütün istefalar, təyinatlar və manipulyasiyalar bu baxımdan nəzərə alınmalıdır. Vladimir Putinin keçmiş köməkçisi Vladislav Surkovun istefasından sonra *perimetrin ətrafındakı* – yəni Rusiya tərəfindən işğal olunmuş ərazilərdə və Belarusdakı bütün fəaliyyətlərə Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyi və Rusiya Federasiyası Prezident Administrasiyasının Sərhəd Əməkdaşlığı Şöbəsi nəzarət edir.

Keçən ilin sonunda rusiyalı müşahidəçilər Prezident Administrasiyasının Sərhəd Əməkdaşlığı Şöbəsinin yenidən təşkili barədə fərmanın Dmitri Kozakın Vladislav Surkovu əvəzlədikdən sonra dəyişmədiyinə diqqət çəkdilər. Lakin ayrıca bir prezident fərmanı ilə gələn digər əhəmiyyətli dəyişikliklərin olduğu, Rusiya Federasiyasının sərhəd manipulyasiyaları ilə birbaşa və ya dolayı əlaqəli olan bütün qurumların Kozakın rəhbərliyi altında birləşdirildiyi ortaya çıxdı. Yeni yaradılmış Beynəlxalq İnkişafa Yardım üzrə Şöbələrarası Komissiyasına daxildir: Rusiya Federasiyası Baş nazirinin müavini, Federasiya Şurasının sədr müavini, bu *beynəlxalq humanitar əməkdaşlığa* bu və ya digər şəkildə daxil olan bütün nazirlik və qurumların rəhbərlərinin müavinləri.

Rusiya mətbuatı bu komissiyanı *Rusiyanın USAID*–i adlandırdı. Ancaq əslində söhbət tam olaraq humanitar yardımından, hətta adi mənada yumşaq gücdən belə getmir; söhbət Rusiyanın özünü ayrı-ayrı dövlətlərlə deyil, onun ideologiyasını və inkişaf strategiyasını qəbul etmiş, simasız qonşularla əhatə etmək məqsədinə çatmaq üçün tətbiqi zəruri olan inteqrasiya prosesləri alətindən gedir. Amma bu cür mürəkkəb və çox mərhələli bir strukturla belə, ideologiya inkişaf etdirə biləcək insanın olmadığı təqdirdə layihə uğursuzluğa məhkumdur. Surkov dövlət xidmətindən ayrıldıqdan sonra sərhədyanı ideoloq vəzifəsi boş qaldı. Rusiyanın separatçı Donetsk Xalq Respublikası (DXR) ilə Luqansk Xalq Respublikasındakı (LXR) son fəaliyyətləri bunu açıq şəkildə nümayiş etdirir.

**Rusiyanın Donbas Doktrini: separatist respublikalarda humanitar dəstək imitasiyası**

Rusiya *Böyük İttifaq Dövləti* layihəsini həyata keçirmək üçün praktikada nə təklif edir? Onun əsas vasitəsi hələ də Şərqi Ukraynanın işğal olunmuş ərazilərinə dəstək imitasiyasıdır. Ukraynanın şərqindəki separatist dövlətlərin sakinlərinə Rusiyanın sosial müavinətləri və ya zəmanətləri deyil (işğal olunmuş ərazilərin sakinlərinə qanunsuz olaraq Rusiya pasportları verilib, lakin onlar sosial müavinət almırlar), gələcəkdə Rusiya ilə ümumi məkana inteqrasiya və yeni humanitar layihələr vəd edilir.

2021-ci ilin əvvəlində Donetskdə *Rusiyanın Donbas Doktrini* təqdim edildi. Bu qırx səhifəlik sənəd bəzən Boris Rapoportun ələ keçirilmiş elektron poçt hesabındakı məktubların məzmununu sözbəsöz təkrarlayır. (Boris Rapoport 2014-cü ildə Prezident Administrasiyasının MDB ölkələri, Abxaziya və Cənubi Osetiya ilə sosial və iqtisadi əməkdaşlıq şöbəsinin müdir müavini idi. İndi həmin qurum Rusiya Federasiyası Prezident Administrasiyasının Sərhəd Əməkdaşlığı Şöbəsi adlanır.) *Novorossiya* kimi köhnə layihələr də doktrinə daxil edilib. Doktrinə görə, *Novorossiya* Ukraynanın cənub və şərq

bölgələrindən ibarətdir və buradakı rusiyapərəst siyasətçilər Ukrayna hökumətinin humanitar və mədəni siyasətlərindən narazılıq görüntüsü yaratmalıdırlar. Eyni zamanda, separatçı DXR və LXR ayrı qurumlar olaraq qalacaq, lakin Rusiya Federasiyası ilə inteqrasiyaya doğru irəliləyəcəklər.

Doktrin sərhəd haqqında 2019-cu ildə separatçı dövlətlərin qəbul etdiyi qanunların mətnlərini təkrarlayaraq qeyd edir ki, separatçı DXR və LXR-in sərhədləri Ukraynanın Donetsk və Luqansk vilayətlərinin sərhədləri ilə üst-üstə düşür. Separatçı respublikaların bu cür iddiaları qətiliklə Minsk razılaşmalarına ziddir, lakin doktrin burada heç bir ziddiyyət görmür və hətta Minsk razılaşmalarından da bəhs edir. Doktrinə görə, bu sənədlər məcmusu yalnız separatçı DXR və LXR-i danışıqlarda iştirak edən tərəf kimi legitimləşdirmək üçün lazım idi. Əslində, Minsk razılaşmalarına istinad Rusiya Federasiyasının separatçı respublikaların nümayəndələrini Üçtərəfli Təmas Qrupunda, danışıqlar formatının mahiyyətinə zidd olaraq, tam hüquqlu iştirakçı kimi təqdim etmək niyyətini bir daha bəyan etmək cəhdidir. Bu danışıqlar ona görə üçtərəfli adlanır ki, ATƏT Ukrayna və Rusiya arasında vasitəçi kimi çıxış edir.

Doktrini təqdim edən separatçı respublikaların rəhbərləri Ukrayna ərazisindəki *Donbas xalqının yenidən birləşməsi üçün Humanitar Proqram*ın fəaliyyətlərini genişləndirərək, *Ukraynanın rus və rusdilli vətəndaşlarını dəstəkləmək* niyyətində olduqlarını bildirdilər. *Ukraynanın rus və rusdilli vətəndaşlarını dəstəkləmək* adı daşıyan bu humanitar proqramın (proqram 2017-ci ildən bəri mövcuddur və əvvəllər yalnız Donetsk və Luqansk bölgələrinin hökumət tərəfindən nəzarət edilən ərazilərinin sakinləri üçün nəzərdə tutulmuşdu) fəaliyyətlərini genişləndirməklə Rusiya köhnə məqsədini reallaşdırmağa çalışır. Bu məqsəd separatçı respublikaları tanımaqdan və Ukrayna cəmiyyətində bu dəfə dil məsələləri ətrafında başqa bir qalmaqal yaratmaqdan ibarətdir.

*Humanitar Proqram* bu cür manipulyasiya üçün kifayət qədər sadə

bir vasitə təklif edir: II Dünya Müharibəsi veteranlarına və sosial ehtiyacları olan digər şəxslərə – *dil ayrı-seçkiliyinin qurbanlarına* kömək üçün birdəfəlik maddi yardım. Lakin bu yardım yalnız *hüquq və azadlıqlarını qorumaq üçün məhkəməyə müraciət edənlər*ə verilir. Hipotetik ödəniş çox da vacib deyil, əsas məsələ odur ki, Rusiya Federasiyası Ukraynada rus dilində danışanların ayrı-seçkiliyə məruz qalması barədə iddiaları məhkəmələrə edilən müraciətlərlə və separatçı respublikaların verdiyi məlumatlarla təsdiqləyir.

Separatçı respublikaların öz məlumatlarına görə, bu vaxta qədər yalnız 76 min insan *Humanitar Proqram*dan faydalanıb, lakin bunun heç bir əhəmiyyəti yoxdur. Bu proqram məhz başqa bir siyasi bəyanat və *Ukraynanın rusdilli əhalisini qoruyan separatçı respublikaların nümayəndələri ilə birbaşa danışıqlar aparmaq* üçün fürsət yaratmaq baxımından vacibdir. Rusiya-Ukrayna müharibəsini etnik qarşıdurma kimi təqdim etmək köhnə taktikadır və separatçı respublikalar bunu tətbiq etməyə davam edir. Rusiya Prezident Administrasiyasındakı indiki fikir böhranı nəticəsində bu layihəyə maraq artıb.

Bəs bütün bu sənədlər və doktrinlər həqiqətən nə üçündür? Rusiya eyni anda bir neçə məqsəd güdür. Ən aşkar məqsəd propaqandadır. Ancaq yuxarıda göstərilənlərdən də göründüyü kimi, bu, 2014-2015-ci illərdə işləməyən köhnə taktikaları yenə istifadə edən olduqca keyfiyyətsiz propaqandadır. Digər bir məqsəd birbaşa danışıqlarla əlaqəlidir: Rusiya separatçı dövlətlərin tanınmasına və onları Rusiyanın əvəzinə münaqişə tərəfləri kimi təqdim etməyə çalışır.

**Dövlət Dumasına seçkilər və qanunsuz silahlı qruplar**

Lakin separatçı respublikaların sakinlərinə doktrinlərin və yeni vədlərin təqdim edilməsinin başqa bir müstəvisi də var və bu, Rusiyanın daxili siyasəti üçün vacibdir. Rusiyanın hakim partiyası üçün bu payızda Dövlət Dumasına keçiriləcək seçkilərdə səs qazanmaq vacibdir. Rusiya işğal olunmuş ərazilərdəki rus pasportu almış sakinlərin seçkilərdə səs

verməsini planlaşdırır. Buna görə də propaqanda tədbirlərinə paralel olaraq işğalçı tərəf kimi Rusiya separatçı DXR və LXR sakinlərinə pasport verdi. Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin məlumatına görə, Ukraynanın şərqindəki işğal olunmuş ərazilərin yarım milyondan çox sakini artıq Rusiya pasportu alıb[1] və Rusiya 2021-ci ilin sonuna qədər bu rəqəmi iki dəfə artırmağı planlaşdırır.[2] Beləliklə, Rusiyanın hakim partiyası bir növ cekpot qazanır: Donetsk və Luqanskda pasportların verilməsi ilə seçkilərdə səsləri, xüsusən də hakim partiya *Vahid Rusiya*nın səslərini şişirtmək mümkündür.

*Birləşmiş Rusiya* bu səsləri almaq üçün mümkün olan hər şeyi etdi. Bu yaxınlarda məlum olduğu kimi, *Birləşmiş Rusiya* partiyasının Baş Şurasının Katibi Andrey Turçak və *Donbas Könüllüləri Birliyi*nin sabiq rəhbəri Aleksandr Boroday (əvvəllər o, separatçı DXR-in Baş naziri vəzifəsini tutmuşdu) əməkdaşlıq müqaviləsi imzaladı. *Donbas Könüllüləri Birliyi* Donbasdakı müharibədə və Rusiya Federasiyasının aktiv olduğu digər qarşıdurmalarda iştirak etmiş insanlardan ibarət əhəmiyyətli bir qrupdur (Borodaya görə, qrupun 14 min nəfərdən çox üzvü var).[3] Rusiyanın işğalı altında olan Donbasla əlaqəli digər siyasi layihələri də var – məsələn, *Ədalətli Rusiya* partiyası ilə Zaxar Prilepin (bir müddət separatçı respublikaların qanunsuz silahlı qrupları sıralarında olan bir yazıçı) rəhbərlik etdiyi *Za Pravdu* partiyasının ittifaqı.

Görünən odur ki, Rusiya tərəfindən işğal olunmuş Donbas bu ölkə üçün təkcə xarici siyasət məsələsi deyil, həm də daxili siyasət amilinə çevrilib. Bu, hazırkı Duma seçki kampaniyasını qiymətləndirərkən nəzərə alınmalıdır. Ukraynanın şərqində işğal olunmuş ərazilərin sakinlərinin səslərinə əlavə olaraq, həm müasir rus militarizmi və qonşu dövlətlərə qarşı təcavüzü dəstəkləyən seçicilərin, həm də Rusiya Federasiyasından gəlib Ukraynanın şərqində döyüşən insanların mövqelərini öyrənmək üçün cəhd göstərilir. Rusiya bu əhali qruplarının mövcud hökuməti nə dərəcədə dəstəklədiyini, ümumiyyətlə, onların cəmiyyətə nə dərəcədə inteqrasiya olunduqlarını, əhval-

ruhiyyələrini və baxışlarını öyrənməyə çalışır. Beləliklə, Böyük İttifaq Dövləti layihəsindən və Dövlət Dumasına seçkilərdən istifadə edərək Rusiyanın üç maddədə qruplaşdırıla biləcək bir sıra hədəflərə çatmağa çalışdığını görürük.

Birincisi daxili hədəflərdir:

1. hakim *Vahid Rusiya* partiyasının mövqeyini gücləndirmək üçün tələb olunan sayda səs almaq.
2. Şərqi Ukraynadakı müharibədə iştirak etmiş vətəndaşlarının dəstəyini qiymətləndirmək və onların əhəmiyyəti ilə bağlı illüziya yaratmaq.

İkinci qrup münaqişələrin həlli prosesində mövcud danışıqlar formatları ilə əlaqəli beynəlxalq hədəflərdir:

1. işğal olunmuş Donetsk və Luqansk ərazilərinin tanınmasını təmin etmək və bununla da Rusiyanın münaqişədəki rolunu gizlətmək. Rusiya münaqişə ilə bağlı öz statusunu təcavüzkardan vasitəçiyə çevirməyə çalışır;
2. mövcud danışıq formatları daxilində Ukrayna tərəfi üçün əlavə çətinliklər yaratmaq, yəni işğal edilmiş şərqi Ukraynanın sakinləri üçün Rusiya pasportlarının Ukrayna tərəfindən tanınması məsələsini qaldırmaq.

Üçüncü qrup işğal olunmuş ərazilərlə əlaqəli hədəflərdir:

1. Şərqi Ukraynanın işğal olunmuş ərazilərində yaşayanların bu gün hiss etdikləri qeyri-müəyyənlikdən doğan narazılığını qismən aradan qaldırmaq – Rusiya Donetsk və Luqanskda *Krım ssenarisini* təkrarlamaq istəmir deyə onları rədd etdi, amma onlar Ukraynaya qayıtmayıblar;
2. işğal olunmuş ərazilərin əhalisini Rusiyanın öz öhdəliklərini yerinə yetirməməsi faktından yayındırmaq. Sosial müavinətləri artırmaq (məsələn, Rusiya pasportu olanların Rusiya səviyyəsində sosial müavinət alması gözlənilərdi) əvəzinə Rusiya işğal olunmuş ərazilərin sakinlərini öz problemlərini qarşıdakı seçkilər yolu ilə həll etməyə təşviq edir və özü əlavə vəsait xərcləmir (məsələn, Rusiya tərəfindən

dağıdılmış infrastrukturu təmir etmək, sosial standartları və ya tibbi xidmət səviyyəsini yüksəltmək və s.);

Başqa sözlə, *Böyük İttifaq Dövləti* layihəsi nə xalq üçün, nə də Rusiyanın ora daxil etmək istədiyi ərazilər üçün müsbət heç nə vəd etmir. Əlavə olaraq, Rusiya Federasiyası ilə həmsərhəd olan dövlətlər önümüzdəki illərdə öz suverenliklərini necə müdafiə edəcəkləri barədə ciddi şəkildə düşünməlidirlər. Axı insanların həyatı – və həyat keyfiyyətləri – risk altındadır. Ukraynanın şərqində işğal altındakı ərazilərin sakinləri bunu təsdiqləyə bilərlər.

[1] https://glavcom.ua/ru/news/zhiteley-okkupirovannogo-donbassa-hotyat-zastavit-golosovat-na-vyborah-v-gosdumu-rossii-755468.html

[2] https://glavcom.ua/country/incidents/u-derzhdumi-prognozujut-masove-zrostannja-kilkosti-zhiteliv-donbasu-z-pasportami-rosiji-752110.html

[3] https://tass.ru/obschestvo/7349463